# Keys metodu vasitəsilə tələbələrdə mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşdırılmasının metodoloji və didaktik əsasları

**Günay Alıyeva**
*ADPU-nun müəllimi*
**E-mail:** gunay.ali@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. D.Ə. İsmayılova,
filol.ü.e.d., prof. N.M. Sadıqova

**Açar sözlər:** interaktiv təlim metodu, keys-metod, mədəniyyətlərarası kommunikativ kompetensiyalar, professional kompetensiyalar, problem situasiya

**Ключевые слова:** интерактивные методы обучения, кейс-метод, межкультурная коммуникативная компетенция, профессиональные компетенции, проблемная ситуация

**Key words:** interactive teaching methods, cross-cultural communicative competence, case-study method, professional competences, problem situation

Sağlam düşüncəli insanın əqli fəaliyyəti qərarların qəbul edilməsində dörd mərhələdən keçir: aşkar əhəmiyyətli faktların müəyyən edilməsi, səbəb-nəticə əlaqələrinin təhlili, problemin strukturunun təhlili (onun hissələri ayrılıqda və ya ardıcıl şəkildə öyrənilir), şəxsi qərarların verilməsi. Aydındır ki, bu cür düşünmək qabiliyyəti tələbədə professional kommunikativ kompetensiyanın olmasını, yəni müxtəlif situasiyalarda səriştəli davranmaq tələb edir. Buradan da, A.Şukinin də qeyd etdiyi kimi, "kommunikativ mütəşəkkillik" anlayışı – şəxsiyyətin professional ünsiyyət prosesində problemli situasiyalarda cəld və adekvat reaksiya vermək qabiliyyətə malik olmaq keyfiyyəti yaranır (1)

İfadəli dillə desək, dil dünyaya pəncərədir və o, insanın bütün fəaliyyətində informasiyalar almasında mühüm rol oynayır. Buna görə də təlim iki komponenti – informasiyanı almanı və ötürməni əhatə etməlidir. İngilis dilində ünsiyyətdə yaxşı kommunikativ vərdişlərə artan ehtiyac dünyada ingilis dilində təlimə də böyük tələb yaratmışdır.

Bu gün ingilis dilini öyrənməyin imkanları müxtəlifdir, məsələn, formal təlim, xaricdə təlim almaq, kütləvi informasiya vasitələri və İnternet vasitəsilə və s. İngilis dilinə olan tələbat bu məqsədlə yeni metodlar, materiallar və resurslardan istifadə etməklə keyfiyyətli tədrisə ehtiyac yaratmışdır.

Professional ünsiyyət prosesində tələbələrin kommunikativ kompetensiyalarının reallaşması üçün xarici dillərin tədrisində xüsusi metodikaya zərurət yaranır. Proyektlər metodu və keys-metodu bu problemin həllinə yardım edə bilər. "Keyslər" metodu konkret işgüzar situasiyanın, professional sahədən real praktikanın öyrənilməsinə əsaslanır. Bu cür metodikanın unikallığı ondan ibarətdir ki, o, tələbələrin fərqli qərarlar qəbul etdikləri şəraitlərdə professional blik və bacarıqlarının kompleksini aktivləşdirir ki, bununla da real işgüzar və ya problem situasiyanı modelləşdirir.

Bu məqalədə tədrisə ənənəvi və innovativ yanaşmalar nəzərdən keçirilir. Təhsil

haqqında ənənəvi təsəvvürlər öz yerini yeni, nisbətən innovativ təfəkkür üsullarını – bilikləri necə əldə etmək və öyrətməyə vermişdir. Müəllimlər əvvəlki qaydada öyrətməyə davam edirlərsə, onda onlar bugünkü səviyyədə dilin tədrisinə nail ola bilməzlər. Buna görə də tədrisi tələbələrdə maraq oyatmaq və motivasiya yaratmaq istiqamətində yeniləmək lazımdır. Tədris prosesi tələbələr üçün darıxdırıcı və ağır yükə çevrilməməlidir.

Zəruri biliklərin, bacarıq və vərdişlərin inkişafına, habelə fənnin (Xarici dilin) bütün xüsusiyyətlərini nəzərə alan tədris metodlardan biri də Keys metoddur. Situativ təhlil metodu müasir pedaqogikada Keys metod (Case-metod) kimi məlumdur və o, N.E.Sidorova və T.S.Stroqovanın da qeyd etdikləri kimi, "konkret tapşırıq-situasiyaların həllinə yönəlmiş aktiv problem-situasiya təhlili metodunu təmsil edir" (2, s. 140).

Xarici dillərin öyrənilməsi prizmasında məsələyə yanaşan L.Y.Minikova və O.A.Obdalova xarici dillərin mənimsənilməsi çərçivəsində formalaşdırılan müasir mütəxəssisin əsas bacarıqlarını belə müəyyənləşdirirlər:

"– informasiyalarla işləmək qabiliyyəti;

vacib informasiyanın çıxarılması və dəyərləndirilməsi;

– elmi fəaliyyətin nəticələrini məntiqi və ardıcıl söyləmlər qurmaqla arqumentlər əsasında təqdim və izah etmək qabiliyyəti;

– kontakta girmək, davam etdirmək və onu kəsmək qabiliyyəti;

– professional fəaliyyətlə bağlı mövzuların müzakirəsində diskussiya aparmağın üsul və qaydalarını bilmək;

– həmsöhbətini dinləmək və başqasının fikir və baxışlarına tolerant yanaşmaq qabiliyyəti və s." (3).

Qeyd edək ki, yuxarıda göstərilən qabiliyyətlər xarici dillərin tədrisinin planlaşdırılmış nəticələri sırasına daxildir. Bu nəticələrə nail olmaq üçün isə mütəxəssisin peşə fəaliyyətini, müxtəlif ölkə və fərqli mədəniyyətlərin daşıyıcıları olan həmkarları ilə qarşılıqlı münasibətdə spesifik professional vəzifə və məsələlərin həllində onun ehtiyaclarını nəzərə alan metodlardan istifadə edilməlidir. Bu münasibətlə tələbələrin aktual professional məsələlərin səmərəli həlli, tədqiqatların nəticələrinin prezentasiyası və müzakirəsi istiqamətində birgə axtarışlarını nəzərə alan Keys metodunun (Case study) metodunun tətbiqi xüsusi əhəmiyyətə malikdir. Hesab edilir ki, Keys metodu müasir mütəxəssisin əsas keyfiyyətlərinin formalaşması yardım edir və professional mühitdə beynəlxalq əməkdaşlıqda iştiraka hazırlığına müsbət təsir edir. Keys metodunun nəzəri əsasları tam işıqlandırmanı tələb edir. Bu metodun, yəni Keys metodunun əsas kateqoriyalarından biri "keys" anlayışıdır. "Keys" anlayışının bu və ya digər məğzi xüsusiyyətlərini qeyd edən xeyli tərifləri mövcuddur.

İngilis dili üzrə məşğələlər Harvard standartına uyğun orijinal texnologiyanı tətbiq etməyə imkan verir. Bu texnologiyanın tətbiq praktikası göstərir ki, "keys" metodu tədris prosesini aktivləşdirir və tələbələrin idrak imkanlarını genişləndirən güclü stimul kimi çıxış edir. Üstəlik keys-metodu adətən kompleks qərardır və bu nəticəyə müxtəlif variantlar təhlil edilməklə gəlinir.

Keys-metodla təlimdə əsas məqam ondan ibarətdir ki, hər bir iştirakçı özünü fəal şəkildə göstərməli, "beyin həmləsi" vasitəsilə əldə edilmiş bu və ya digər qərarları, hətta ənənəvi olmayan ideyaları qəbul etməli, qrupda vahid mövqeni formalaşdırmalı, nəticələri tərtib etməli və onları yığcam şəkildə təqdim etməlidir. Problem-situasiya təlim metodu

tələbələrin kommunikativ təlimində kommunikativ kompetensiyanın yaradılması üçün mühüm həlqədir, çünki o, professional fəaliyyətin real situasiyalarını dərk etməyə və müəyyən problemin çözümü üçün zəruri kompleks biliklərin aktuallaşdırmağa imkan verir.

Keys-metodu danışıq vərdişlərinin səmərəli inkişafına yardım edir, çünki situasiyanı öyrənən tələbələr problemin həlli yollarını arayır və onun nəticələrini təqdim edirlər. İşgüzar söhbətə təlim prosesində keys-metod bir neçə mühüm vəzifənin inkişafına xidmət edir. İlk növbədə, bu metoddan istifadə işgüzar kommunikasiya üçün vacib olan riporik fiqurlardan ibarət xüsusi nitq mühiti yaradır. Keys iştirakçıları aktiv fəaliyyətə sövq edir ki, bu da, Z.İ.Fedorinovanın da qeyd etdiyi kimi, "nitq hazırlığının yüksəlməsinə, evristik fəaliyyət qabiliyyətinin artmasına xidmət edir" (4, s. 91).

Harvard standartına uyğun keysin sərt strukturun müxtəlif faktların izahı və baxışlarla birləşməsi güclü sinergetik effekt yaradır və prinsipcə problemin yeni keyfiyyətli həllinə gətirib çıxarır. Məsələn, Harvard formatına görə məşğələlər aşağıdakı sxem üzrə qurulur (5):

Hazırlıq mərhələsi – keysin mətninin oxunuşu. I mərhələ - qısa xülasə. II mərhələ - problemin qoyuluşu. III mərhələ - iştirakçılar. IV mərhələ - hadisələrin xronologiyası. V. mərhələ - problemi yaradan faktlar. VI. mərhələ - həll variantların seçimi. VII mərhələ - rəylər. VIII mərhələ - hərəkət planı.

Praktik nöqteyi-nəzərdən keys-metod tibb, hüquq, psixologiya, politologiya, iqtisadiyyat və biznes-təhsil sahəsində mütəxəssislərin hazırlanmasında istifadə edilmişdir. Keys-metod tədris prosesini aktivləşdirir və təhsilalanların idraki imkanlarının genişləndirilməsinin səmərəli vasitəsidir. Tədris prosesində bu texnologiyadan istifadə tədris prosesinin subyektləri arasında müxtəlif qarşılıqlı təsir formalarının intensivləşməsinin artmasına, inkişafına, yeniləşməsinə gətirib çıxarır, çünki onun əsil mahiyyəti şəxslərarası qarşılıqlı təsirlərə isitqamətlənməsi, şəxsiyyətin psixi və sosial strukturuna təsiridir.

Keys-metodun fənlərarası xarakteri təhsili müxtəlif səviyyələrində konkret məsələlərin həllində praktik, öyrədici və elmi-araşdırıcı keyslərdən istifadə etməyə imkan verir. Təbii ki, keyslərlə işə başlarkən tədris və tərbiyəvi məsələlərin yer aldığı öyrədici xarakterli keyslərdən başlamaq məqsədəuyğundur. Keyslərin materialların hazırlanmasında mənbə kimi təlimin xüsusi məqsədlərinə uyğunlaşdırılmış xəbər yenilikləri, qəzet və ya jurnal publikasiyaları, bədii əsərlər xidmət edə bilərlər.

Keys kimi (konkret situasiya) aktiv təlim metodunun istifadəsi xarici dillərin tədrisində tələbələrə nəzəri biliklərin praktik məsələlərin həllinə imkanlar yaradır. Bu metod tələbələrdə müzakirə və real konkret təklif olunan və ya modelləşdirilmiş situasiyada qərarların qəbul edilməsi prosesində analitik və qiymətləndirmə səriştəsinin (kompetensiyasının) formalaşmasına və inkişafına yardım edir. Keys metodunun istifadəsi tələbələrdə müstəqil işləmək və müstəqil düşünmə vərdişlərinin formalaşmasına kömək edir. Bu zaman onlarda yalnız öz mövqeyini arqumentlərlə izah etmək bacarığı deyil, həm də alternativ baxışları diqqətlə dinləmək, təhlil etmək və nəzərə almaq, qoyulmuş problemin rasional şəkildə həllini tapmaq bacarıqları formalaşır və möhkəmlənir. Beləliklə, tələbələr kommunikasiya kompetensiyalarını inkişaf etdirərək komandada işləməyi öyrənir, çünki xarici dil professional vəzifə və məsələlərin həlli üçün işlək alət vasitəsidir.

Linqvodidaktik ədəbiyyatda problem təlim nəzəriyyəsi və praktikasında bu metodun özünəməxsusluğu və dəyərliliyi haqqında çoxsaylı cəhdlər mövcuddur. Ənənəvi olaraq professional ünsiyyət şəraitində tələbələrin kommunikativ mütəşəkkilliyini aktivləşdirmək üçün tətbiq edilən strategiyalar və taktikaların siyahısı qeyd edilir. Onlar arasında "professional problem situasiyasının komponentlərinin aşkarlanması və çevik qiymətləndirilməsi", "əvvəlki təcrübələrə istinad olunması", "problemin prinsipial həllinin axtarışı", "tapılmış həllin reallaşdırılması" və s.

Keys metodu ilə təlimdə prinsipial yanaşma hər bir tələbədə qazandığı nəzəri biliklər, təcrübə əsasında problemin həlli variantının işlənib hazırlanmasından ibarətdir. Tədrisin əsas vəzifəsi isə ondan ibarətdir ki, tələbələrin qrupu bir deyil, bir neçə həll işləyib hazırlanmasında, həyatın müxtəlif aspektlərinin peşəkar təhlili və təklif olunan situasiyada səmti müəyyənləşdirməyi öyrətmək lazımdır.

Konkret tədris müəssisəsinin tədris kursunun proqramında xüsusi iqtisadi və ya kommersiya fənlərinin tədrisi nəzərdə tutulursa, onda xarici dili tədris edən müəllimin işi xeyli yüngülləşir, çünki tələbələrdə artıq müəyyən situasiyaları həll etmək vərdişləri yaranmışdır. Onlar (tələbələr) problemin müzakirəsinə aktiv şəkildə qoşulur, diskussiyanın gedişində fəallıq nümayiş etdirir və yeni-yeni ideyalar irəli sürürlər. Belə vəziyyətlərdə müxtəlif həvəsləndirici suallar verən müəllimin aparıcı kimi fəaliyyəti ikinci plana keçir. Onun əsas vəzifəsi tələbələrdə kommunikativ-nitq kompetensiyasının (səriştəsinin) formalaşdırılmasından ibarətdir. Tələbələrin cavablarını qeyd edən müəllim keys metodunda istifadə olunan terminləri deyil, həm də diskussiyaların aparılmasında onların etikasını, "jest dilindən" (body language – bədən dili) istifadə etmələrinə diqqət yetirir.

Xarici dil keys metodu ilə işləmə vərdişləri olmayan qruplarda tədris olunursa, onda müəllimin vəzifəsi bir qədər də ağırlaşır. Çünki o, tələbələri sadəcə peşə dilinə deyil, həm də təklif olunmuş dil materialı ilə işləməyi, onların həyatda qarşılaşdıqları tipik situasiyaları təhlil etməyi öyrətməlidir.

Biliklərin alınması prosesinin demokratikləşməsi, yəni situasiyaların müzakirəsində tələbə və müəllimin bərabərhüquqlu olduqları zaman dilöyrənənlər tədricən müstəqilləşir və onlar getdikcə daha aktiv şəkildə diskussiyalara qoşulurlar.

İngilis dilinin tədrisinə yanaşmalar və metodlar son 40 ildə sürətlə inkişaf etmişdir. Burada mühüm olan odur ki, müəllimlər, menecerlər kimi, tədris prosesində müxtəlif metod və yanaşmalardan istifadə etsinlər, tələbələr isə təhsil bazarında səmti müəyyənləşdirə bilməlidirlər ki, bu da öyrənilən dilin keyfiyyətinin artırılmasına xidmət edir. Sözsüz ki, tədris situasiyası, hər şeydən əvvəl, proqramın və ya tədris kursunun mövzusu üzrə proqram materialı çərçivəsində istifadə edilməli və təlim nöqteyi-nəzərindən real, aktual informasiyanı özündə əks etdirməlidir. Keys-metoda digər metodlar da inteqrasiya edilə bilər, məsələn, sistem təhlili, modelləşdirmə, təsnifat metodu, beyin həmləsi, oyun metodları və s. Tələbələrin keyslər üzərində işlərini aşağıdakı mərhələlərə bölünür:

— situasiya ilə tanışlıq;
— informasiyanın təhlili;
— həll yollarının axtarışı;
— hər bir təklifin üstün və çatışmayan cəhətlərini aşkar etmək;

— alternativlərin qiymətləndirilməsi;
— nəticələrin prezentasiyası;
— iştirakçıların qiymətləndirilməsi;
— nəticələrin yekunlaşdırılması.

**Məqalənin aktuallığı.** Keys metodu vasitəsilə tələbələrdə mədəniyyətlərarası ünsiyyət bacarıqlarının formalaşdırılmasının metodoloji və didaktik əsaslarının tədqiqi mövzunun aktuallığını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Keys metodu vasitəsilə tələbələrin professional kommunikativ kompetensiyalara yiyələnməsində interaktiv təlim metodlarının təsiri və rolu olduqca çoxdur və bu da mövzunun elmi yeniliyi kimi nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə fərqləndirilən vasitələr tələbələr, müəllimlər, tədqiqatçılar və başqalarının düzgün istifadəsinə yardımçı ola bilər.

## Ədəbiyyat

1. Щукин А. Н. Современные интенсивные методы и технологии обучения: Учебное пособие. М.: Филоматис, 2010, 416 с.
2. Сидорова Н.Е., Строгова Т.С. Кейс-метод. Тамбов: Тамбовского университета, 2011, с. 1- 4.
3. Миникова Л. Ю., Обдалова О. А. Компетентностный подход в реализации профессионально ориентированных проектов при обучении иностранному языку // Вестник Томского государственного университета. 2012, № 365, с. 143–148.
4. Федоринова З. В. Использование метода case-study для гуманитаризации образования в техническом вузе // Вестн. Томского гос. пед. ун-та, 2012, Вып. 4, с. 90-92.
5. Зубкова Е. В. Английский язык для профессиональных целей. Анализ конкретных деловых ситуаций. Case Studies. М.: Изд-во Рос. экон. акад., 2008, 62 с.
6. West M. A General Service List of English Words. London: Longman, 1953, 588 p.

**Г. Алыева**

## Методологические и дидиктические основы формирования у студентов межкультурных способностей общения посредством Кейс-метода

### Резюме

В статье рассматривается влияние и роль интерактивных методов обучения в овладении студентами профессиональными коммуникативными компетенциями. В статье подчеркивается необходимость и важность внедрения в образовательный процесс методов деловых игр, кейс-стади, проектного моделирования и др. В статье подчеркивается, что иностранный язык при этом становится инструментом,

способным формировать профессиональные качества, поликультурное сознание, обеспечивающее адекватное взаимодействие с представителями другой культуры.

**G. Alıyeva**

## The methodological and didactical bases of forming intercultural communication skills of students through case method


## Summary

The article deals with the methodological and didactical bases of forming intercultural communicative skills of students through case method. The impact and the role of interactive teaching methods in mastering professional communicative competence of students have been investigated in the article.

The article highlights the importance of practical games as well as the importance of case method, the methods of project modeling techniques in the teaching process. The article notes that at this time, the foreign language acts as a means of forming multicultural consciousness, with the professional qualities that provide adequate interaction between carriers of different cultures.


**Redaksiyaya daxil olub:** 15.08.2019